*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 3 No. 3 (2026): Autumn*

# Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası ilə milli musiqidə klassik Avropa musiqisinin forma və janr xüsusiyyətlərinin tətbiqi ənənələrinin formalaşması

## *The Formation of Traditions in Applying the Formal and Genre Features of Classical European Music to National Music through Uzeyir Hajibeyli's Opera Leyli and Majnun*

**Səidə Əhmədova**
*Musiqi nəzəri fənlər şöbəsinin müəllimi, Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Musiqi Kolleci, Azərbaycan*
ORCID: https://orcid.org/0009-0006-2024-0732
**DOI:** https://doi.org/10.69760/gsrh.0260303004

**© 2026 Səidə Əhmədova.** This is an open-access article published in *Global Spectrum of Research and Humanities (GSRH)*. Licensed under **Creative Commons Attribution 4.0 International (CC BY 4.0)** — free to share, adapt and use commercially, with attribution.
https://creativecommons.org/licenses/by/4.0/

---

**Xülasə**

Ü. Hacıbəyli yaradıcılığı bütün zamanlar üçün aktual olub, onun əsərləri milli mədəniyyətin ən zəngin yaradıcılıq irsidir. Bəstəkar yaradıcılığının novatorluğu XX əsrin ilk başlarında əsrlərdən etibarən şifahi ənənələr əsasında inkişaf edən milli musiqi mədəniyyətinin istiqamətini dəyişərək, ona yeni və demokratik sima qazandırmaqla izah olunur. Bununla yanaşı musiqinin bütün janrlarında ilk milli nümunələrin yaranması məhz Ü. Hacıbəylinin adı ilə bağlıdır. Ü. Hacıbəyli ilk operası "Leyli və Məcnun"da klassik Avropa musiqisi ilə milli musiqinin özünəməxsus forma və janr xüsusiyyətlərini sintez etməklə yanaşı, klassik musiqidə öz təsdiqini tapmış ənənələrin tətbiqini yetişdirib, klassik opera janrı və formalarının, vokal, simfonik musiqinin milli əsaslarla işlənib, formalaşması problemini həll etmişdir. Məqalədə bəstəkarın yaradıcılığının bu kimi nailiyyətləri və mahiyyəti haqqında danışılır. Qeyd edilir ki, opera janrında yazılan bir tək əsərdə Avropa musiqisinə xas elementlərin nəzərdən keçirilməsi milli musiqinin inkişafında yeni perspektivləri meydana gətirdi. "Leyli və Məcnun"da muğamla klassik ənənələrin sintezi opera janrında yeni, milli istiqamətin formalaşmasını yetişdirdi. Bu operada solo, ansambl, xor nömrələri xor sənəti, vokal ifaçılığının da peşəkar səviyyədə inkişafının zəminini hazırladı. Operanın simfonik epizodları milli musiqidə simfonik təfəkkürün formalaşmasında mühüm rol oynadı. Operanın uvertürasında iki mövzunun işlənməsi milli musiqidə sonata-allegro formasına xas xüsusiyyətləri meydana gətirdi, eyni zamanda "Şəbi-hicran" xoru və bir sıra nömrələrdə polifonik imkanlardan istifadə birsəsli quruluşlu Azərbaycan musiqisinin çoxsəsli olaraq təqdim olunması probleminin həlli yolunda ilk addımlardan oldu.

**Açar sözlər:** *bəstəkar; musiqi; opera; janr; forma; milli musiqi*

**Abstract**

Uzeyir Hajibeyli's creative legacy remains relevant across generations and constitutes one of the richest foundations of Azerbaijani national culture. His innovative contribution lies in redirecting a musical culture that had developed for centuries through oral tradition toward new professional and democratic forms. This article examines how Hajibeyli's first opera, Leyli and Majnun, established traditions for integrating the formal and genre features of classical European music into Azerbaijani national music. Using historical, comparative, analytical, and descriptive methods, the study considers the opera's overture, solo, ensemble and choral numbers, orchestral episodes, dramaturgical development, modal system, and use of polyphonic techniques. The analysis shows that the synthesis of mugham with classical opera principles created a new national direction in the genre. The overture introduced elements associated with sonata-allegro form; the choral writing supported the professional development of vocal and choral performance; and the symphonic episodes contributed to the emergence of symphonic thinking in Azerbaijani music. The article concludes that Leyli and Majnun not only defined Hajibeyli's individual creative path but also laid a foundation for the Azerbaijani school of composition and for the broader integration of national musical culture into world music.

**Keywords:** *composer; music; opera; genre; form; national music*

---

## 1. Giriş

Musiqi fərdin şəxsiyyət kimi yetişməsinə birbaşa təsir edib, onun mənəvi keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Hər bir xalqa məxsus maddi-mənəvi dəyərlər musiqi mədəniyyətində mütləq öz əksini tapır. Ümumilikdə sivilizasiyanı inkişaf etdirən bu dəyərlər toplusu musiqi mədəniyyətində mühüm əhəmiyyətə malikdir. Dəyərlər xalq yaradıcılığından öz başlanğıcını götürərək inkişaf, transformasiya, assimilasiyaya məruz qalır və tarixi proses nəticəsində bədii yaradıcılıqda ənənəyə çevrilərək, bir xalqdan digər xalqa ötürülür. Musiqili ənənələr eraların bir-birini əvəz etməsi ilə tarixin dolanbaclarında birmənalı olaraq yox olmur. Bir nəsildən digərinə ötürülür, forma və məzmununu dəyişir. Belə bir davamlılıq olmadan musiqi mədəniyyəti, ümumiyyətlə, cəmiyyətlərin inkişafı mümkün deyil. Klassik musiqi dünya mədəniyyətinin qızıl fondudur. Məhz klassik musiqi heç bir zaman əskimir və özünün əhəmiyyətini itirmir. Klassik musiqi emosional interpretasiya imkanlarına qadir universal xarakterdədir. Məhz bu cəhət klassik musiqini istənilən yaş və mədəni dünyagörüşü daşıyan geniş dinləyici kütlələri üçün əlçatan edir. Musiqinin təsiri ilə yüksək səviyyədə inkişaf edən cəmiyyətlər isə dünya sivilizasiyasının mədəni nailiyyətlərini meydana gətirir. Klassik musiqidə əsrlərlə öz ifadəsini tapmış ənənələrin bu və ya digər xalqların milli musiqi mədəniyyəti nailiyyətləri ilə uzlaşdırılması həmin xalqların milli incəsənətinin ən dəyərli irs kimi dünya mədəniyyətinə inteqrasiyasını yetişdirir.

Azərbaycan dərin tarixi kökləri, əvəzolunmaz mədəni irsi ilə dünya mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Təsadüfi deyil ki, Orta əsrlər Şərq İntibahının doğulması və inkişafı Azərbaycan mütəfəkkirləri ilə birbaşa bağlı olmuşdur. Özünəməxsus xalq musiqisi, muğam sənəti milli musiqinin simasını müəyyən edib, əsrlər boyu ifaçılıq sənəti, musiqişünaslıq elminin inkişafında xüsusi rol oynayıb. XX əsrin ilk onilliklərində milli musiqinin xarakterinin dəyişməsi, inkişaf istiqamətinin yeni təmayüllərlə dolğunlaşması tarixi

zəruriyyətdən doğan mühüm proses idi. Bu illərdə klassik Avropa musiqisinin forma və janr xüsusiyyətlərinin milli zəmində işlənməyə başlanması Azərbaycan musiqisinin orijinal elementləri ilə Avropa musiqisi ənənələrinin üzvi şəkildə qovuşmasını yetişdirdi (İsmayılov, 1984). Mühüm əhəmiyyəti ilə diqqət çəkən bu proses öz başlanğıcını Ü. Hacıbəylinin yaradıcılığından götürdü. Ü. Hacıbəylinin 1907-ci ildə yazılaraq, 12 (25) yanvar 1908-ci ildə Bakıda Z. Tağıyevin teatrında premyerası baş tutan "Leyli və Məcnun" operasında ilk dəfə Şərq musiqi təfəkkürü ilə Avropa musiqisi elementlərinin sintezinə nail olmağı milli musiqidə klassik ənənələrin formalaşması kimi özündə yeni təmayülləri birləşdirən yaradıcılıq prosesini yetişdirdi. Bəstəkarın bu sahədəki fəaliyyətinin əhəmiyyətini vurğulayan Z. Səfərova yazır: "Sənətdə, musiqi mədəniyyətində millilik və beynəlmiləlçilik anlayışını Ü. Hacıbəyli qlobal, Qərb və Şərqin, dünya və milli mədəniyyətlərinin nailiyyətlərinin üzvi sintezi kimi başa düşürdü və həll edirdi" (Azərbaycan musiqi tarixi, 2017, s. 25). Bu cümlələr Ü. Hacıbəylinin yaradıcılıq amalının hədəfini və onun bu istiqamətdən yola çıxaraq "formaca dünyəvi, məzmunca milli" musiqi mədəniyyətində yeni inkişaf istiqamətlərini müəyyən etmək istəyini izah edir.

"Leyli və Məcnun" operası klassik Avropa opera qanunauyğunluqlarını tamamilə nəzərdən keçirən musiqili səhnə dramı olmasa da, əsərdə opera sənətində əsrlərlə öz təsdiqini tapan ənənələrə yaradıcı istiqamətdən yanaşan Ü. Hacıbəyli klassik ənənələrin milli musiqiyə nüfuzu və bəstəkar yaradıcılığında sağlam zəmininin təməlini atmışdır (Kyazimova, 2023). Əsərdə dramaturgiyanın pərdə və şəkillər əsasında qurulması, başlanğıcdakı müqəddimənin tamaşaçıları hadisələrin axınına qoşması, tam klassik opera formaları olmasa da solo, ansambl və xor nömrələrinin inkişafının təmin edilməsi, bəzi epizodlarda simfonik təfəkkürün nümayişi və milli musiqinin birsəsli quruluşunun çoxsəsli musiqiyə uyğunlaşdırılması – bütün bunlar klassik musiqi ənənələrinin milli zəmində işlənməsi sahəsində ilk təcrübələr idi.

## 2. Metodologiya

Tədqiqat keyfiyyət yönümlü musiqişünaslıq yanaşmasına əsaslanaraq Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında klassik Avropa musiqisinin forma və janr xüsusiyyətlərinin tətbiqini, onların milli musiqi təfəkkürü ilə qarşılıqlı əlaqəsini və Azərbaycan professional musiqisinin formalaşmasındakı rolunu araşdırır (Laman, 2023). Tədqiqatın metodoloji əsasını tarixi, müqayisəli, analitik və təsviri metodlar təşkil edir. Bu metodların tətbiqi operanın musiqi dili, dramaturji quruluşu, forma xüsusiyyətləri və bəstəkarın yaradıcılıq prinsiplərinin kompleks şəkildə öyrənilməsinə imkan verir.

Araşdırmanın əsas mənbəyini "Leyli və Məcnun" operası, Azərbaycan musiqi tarixinə və Üzeyir Hacıbəylinin yaradıcılığına həsr olunmuş elmi ədəbiyyat, həmçinin mövzu ilə bağlı musiqişünasların tədqiqatları təşkil edir. Təhlil zamanı operanın uvertürası, xor, solo və ansambl nömrələri, orkestr epizodları, dramaturji inkişaf prinsipləri, lad-məqam sistemi və klassik Avropa opera formalarının milli musiqi elementləri ilə sintezi diqqət mərkəzində saxlanılmışdır (Türkmenoğlu & Azizoğlu, 2023).

Müqayisəli təhlil vasitəsilə klassik Avropa opera ənənələri ilə Üzeyir Hacıbəylinin tətbiq etdiyi milli yaradıcılıq prinsipləri arasında oxşar və fərqli cəhətlər müəyyənləşdirilmişdir. Eyni zamanda sonata-allegro formasının elementləri, polifonik inkişaf, xor dramaturgiyası və simfonik təfəkkürün operada təzahürü musiqi nəzəriyyəsi baxımından

qiymətləndirilmişdir. Tarixi yanaşma isə əsərin yaranma dövrünün ictimai-mədəni şəraitini və onun Azərbaycan professional musiqisinin sonrakı inkişafına təsirini müəyyən etməyə xidmət etmişdir (Babayev et al., 2025).

Beləliklə, tarixi-müqayisəli və musiqi-nəzəri təhlilin vəhdətdə tətbiqi "Leyli və Məcnun" operasının milli musiqidə klassik Avropa forma və janr xüsusiyyətlərinin tətbiqinin əsasını qoyan, eyni zamanda milli musiqi ənənələri ilə Avropa bəstəkarlıq məktəbinin uğurlu sintezini nümayiş etdirən fundamental sənət nümunəsi kimi elmi cəhətdən qiymətləndirilməsinə imkan yaratmışdır.

### 3. Nəticələr və müzakirə

Məlum olduğu kimi Ü. Hacıbəyli yaradıcılıq axtarışlarının ilk nəticəsi olan "Leyli və Məcnun" operasında solo, ansambl nömrələrini muğam şöbələri ilə əvəz etməkdə məqsədli hərəkət etmişdir. O, ilk başda Avropa opera sənəti ilə tanış olmayan Azərbaycan dinləyicisini bu janrla tanış etməyi hədəfləmişdir. Məhz muğam eşitmək üçün operanı izləməyə böyük maraq göstərmiş dinləyici kütləsi nəhayətdə opera sənətinin ecazkarlığını dərk etməyə hazır olacaqdı. Bəstəkar da bu istiqamətdən çıxış edir və opera sənətinin forma, janr xüsusiyyətlərini ustalıqla ilk musiqili səhnə dramında təqdim etməklə böyük bir tarixi missiyanı yerinə yetirir, klassik Avropa musiqisi qanunauyğunluqlarının milli zəmində işlənməsi probleminin həllinə nail olur (Rzayeva & Asgarova, 2026). Əsərdə milli incəsənətdə formalaşan ənənələr də nəzərdən keçirilir. Xüsusilə xalq arasında geniş yayılan "şəbeh"lərdə iştirakçıların təqdim etdikləri oyun üslubunun elementləri hadisələri vahid dramaturgiyada birləşdirmək imkanı yaradır. Bu, ümumilikdə milli muğam və teatr tamaşası təfəkkürünün Avropa səhnə dramları ilə qarşılıqlı əlaqəsini yetişdirirdi. Bəstəkar bu haqda deyir: "Azərbaycan operalarının forması (şəkli) Avropa operalarından əxz edilmişsə, iştirak edənlərin üsulu-təğənnisi şəbehlərdən götürülmüşdür. Təvafüt bir bundadır ki, operalar şəbehdən daha artıq və daha geniş bir surətdə mövcud dəstgahlarımızdan istifadə edib səhnə tərtibatı və "orkestr" istemalı ilə zahirdə Avropa operasına yavuq bir şəkil alır" (Hacıbəyli, 1965, s. 222).

"Leyli və Məcnun" operasında Avropa opera sənətinin forma, janr xüsusiyyətləri ilk başda müqəddimədə nümayiş olunur. Bu da qeyd edilməlidir ki, operanın uvertürası hələ də kamil opera uvertürası nümunəsi deyildi. Musiqili səhnə dramında bu nömrəni Avropa klassik operalarının formalaşması prosesində K. Monteverdinin operalarında mövcud olan uvertüra nümunələri ilə müqayisə etmək olar. Məlum olduğu kimi K. Monteverdinin 1607-ci ildə səhnələşən "Orfey" operasının əvvəlində keçən tokkata opera uvertüralarının ilk nümunəsidir. Bu fanfar musiqi qədim dövrün tamaşalarını fanfar çağırışları ilə başlamaq ənənələrini əks etdirirdi. Kənar hissələri oxşar, orta hissəsi təzad daşıyan üçhissəli formalı bu tip uvertüralar simfoniya da adlanırdı. Sonrakı dövrün sonata-simfonik silsilələrində də bu cəhət özünün ifadəsini tapır.

"Leyli və Məcnun" operasının uvertürası sonata-allegro formasına uyğun olaraq iki mövzu üzərində qurulub. Bunlardan ilki qəhrəmani xarakterdə olub, marş rəqsinin elementləri ilə operanın personajlarından olan Nofəlin xarakterizə olunduğu musiqi nömrəsinin mövzusuna əsaslanır, "Heyratı" zərbi muğam, ikinci mövzu isə lirik xarakteri ilə məhəbbət mövzusu olub "Mani" zərbi muğam üzərində qurulub. Milli zərbi muğamlar üçün səciyyəvi olan instrumental inkişaf xüsusiyyətləri hər iki muğamın uvertürada istifadə imkanlarını

genişləndirib. Bununla bəstəkar milli muğam elementlərindən ilk dəfə klassik formada faydalanıb, sonata-allegro formasında mövzuların lad-məqam əsasına xalq musiqisi ünsürlərini yerləşdirib və klassik musiqidə təsdiqini tapan forma, janr xüsusiyyətlərinin milli musiqidə istifadə ənənələrinin başlanğıcını hazırlayıb. Uvertüradan sonra birbaşa xor nömrəsi "Şəbi-hicran"ın səslənməsi Avropa operaları üçün səciyyəvi deyil. Bu, bəstəkarın yaradıcılığının novator xüsusiyyətini nümayiş etdirib, onun klassik formada yeni təmayüllərə imza atan sənətkar simasını müəyyənləşdirib. "Şəbi-hicran" xorunda birsəsli milli musiqini polifonik çoxsəsliliyə tabe edən Ü. Hacıbəyli ilk dəfə birsəsli quruluşlu xalq musiqisinin çoxsəslilik imkanlarına nəzər salıb. Bu xor nömrəsi bəstəkara daha sonrakı illərdə yazdığı musiqili səhnə dramlarında xor partiyasını özünəməxsus şəkildə şərh etmək imkanı qazandırmışdır. Dramaturji inkişafda əhəmiyyətli rol oynayan xor operanın hadisələrinin psixoloji tərəflərini özündə birləşdirir və hadisələrin izahında uvertüradan daha fəal iştirak edir. 3/4 metrik ölçüsü ilə təqdim olunan xorda lad-məqam əsası olaraq "Rast"a müraciət olunmuşdur. İki bənddən ibarət xor nömrəsində kupletlər sadə üçhissəli formada yazılıb. Soprano və alt səsləri fəal şəkildə ecazkar melodiyalı partiyalarını ifa edir. Tenor isə onlara zidd mövzuları səsləndirir. Bas partiyası müşayiət funksiyasını icra edir. Xorun üçhissəli formasında tonika-subdominanta əlaqəsi özünü hiss etdirir. Kənar hissələrdə mi, orta hissədə isə lya mayəli "Rast" səslənmədə xüsusi çalarlar ortaya qoyur. Operada "Şəbi-Hicran" xorunun əhəmiyyəti haqqında Z. Səfərova qeyd edir: "Operanın məşhur "Şəbi-hicran" xoru əsərin proloqunu təşkil edərək, onun sanki epiqrafı olmuş və operanın ümumi əhval-ruhiyyəsini gözəl ifadə edə bilmişdi. Xorun melodiyası xalqındır, sözləri Füzulinin "Divan"ından götürülmüşdü" (Azərbaycan musiqi tarixi, 2017, s. 57). Bəstəkar operanın dramaturgiyasında digər musiqili nömrələrdə də çoxsəsli inkişaf imkanlarına müraciət edir. V pərdənin girişi və "Arazbari" ritmik muğamına əsaslanan orkestr epizodu bu baxımdan əhəmiyyətlidir.

"Leyli və Məcnun" operasının ümumi dramaturgiyasında xor nömrələri aktiv iştirak edir. İlk və tamamlayıcı xor bütün əsərin sərhəddini müəyyən edib, kütləvi səhnələrdə digər xor nömrələrinin də əhəmiyyətini diqqətə çatdırır. "Evləri var xana-xana" xalq mahnısına əsaslanan xor, "Bu gələn yara bənzər", "Leylini qoyma məktəbə getsin", "Məcnun, Məcnun, dur gedək", "Söylə bir görək" xorları inkişafı kulminasiyaya daşıyıb, düyünün formalaşması və açılması prosesində özünəməxsus rol oynayıb. Xor nömrələrinin solo partiyalarla dialoqu isə milli operada Avropa klassik operalarında eyni səciyyəli səhnələrin ənənəvi cəhətlərinin təzahürlərindən biridir.

Ü. Hacıbəyli "Leyli və Məcnun" operasında gələcəkdə yazacağı musiqili səhnə dramlarında istifadə edəcəyi forma və janr xüsusiyyətlərini ilk dəfə təcrübədən keçirmişdir. Klassik musiqinin qanunauyğunluqlarının milli zəmində tətbiq olunması məsələsi bəstəkar üçün yaradıcılıq problemi olmuşdur. O, bu sahədə daim axtarışlar aparmış, klassik və xalq musiqisi ilə əlaqəli biliklərini təkmilləşdirmiş, xalq musiqisi ünsürlərinin Avropa musiqisinin forma, janr xüsusiyyətlərinə uyğunlaşdırılmasında milli musiqidə ilk əhəmiyyətli işləri görmüşdür. Xalq musiqisinin forma, janr cəhətləri, inkişaf imkanlarını dərindən mənimsəyən və bu bilikləri təcrübələrdə sınayan bəstəkar müxtəlif janrlı əsərlərdə özünəməxsus üslub nümayiş etdirməyə nail olmuşdur. Bu üslub isə ilk başda xalq musiqisi ünsürlərindən yaradıcı şəkildə istifadə etmək nəticəsində özünü təsdiq etmişdir. Bəstəkar üçün əzəmətli və zəngin mənbə – xalq musiqisi musiqili təfsirlərin zəminində mütləq öz ifadəsini tapmalı idi. Bunu öz

təcrübələrində sınayan bəstəkar qeyd edir: “Azərbaycan xalq musiqi sənətinin əsasını təşkil edən ciddi qanun-qaydalar nəinki mənim yaradıcılıq qayəmə məxsus həyəcan və meylləri boğdu, əksinə, bu qanun-qaydalar bir bünövrə olaraq azad yaradıcılıq fantaziyasının geniş üfüqlərini aydın işıqlandırıb mənə daha artıq cəsarət verdi” (Hacıbəyli, 1985, s. 12).

Klassik musiqi ənənələrini milli zəmində işləmək zərurətini mühüm yaradıcılıq qayəsinə çevirən Ü. Hacıbəyli “Leyli və Məcnun” operasına sonradan daxil etdiyi “Çahargah” məqamına əsaslanan “Məcnunun atasının ariyası”nda milli muğam elementlərinin klassik opera nömrəsində səslənmə imkanlarına aydınlıq gətirir. Bu solo nömrə bütün əsərdə bitkin klassik formalı yeganə ariyadır. Bəstəkar ariyanı opera üzərində yenidən işlədiyi XX əsrin 30-cu illərində yazmışdır. Burada oğlundan nigaran atanın narahatlığı ifadə olunub. Vokal nömrənin əvvəlində instrumental giriş var. Onun özünəməxsus ahəngi ariyanın formasını ortaya çıxarır. İnstrumental giriş operanın birinci pərdəsinin sonunda səslənən musiqi materialı üzərində qurulub, başladığı ilk motivlərdə “Çahargah” məqamı bütün zənginliyi ilə hiss olunur. Bu material daha sonra vokal partiyaya keçir və onu müşayiət edərk, sonda bütün nömrəni bir vəhdətdə birləşdirir. Ariya Azərbaycan operalarının solo nömrələrinin forma xüsusiyyətlərini yaradaraq, klassik ariya tipinin ilk nümunəsi kimi əhəmiyyətlidir. Ariyada milli musiqidə klassik musiqi ənənələrinin imkanlarının tətbiqi problemi ilk dəfə öz həllini tapmışdır. Məcnunun atası Əbül-Qeysin ifasında səslənəcək olan ariya operanın muğam təfəkkürünü pozmamaq niyyəti ilə bəstəkar tərəfindən əsərə daxil edilməsə də, nömrə milli vokal sənətinin inkişafında əhəmiyyətli solo partiya kimi görkəmli sənətkar Bülbülün repertuarında daim yerini alıb. Bu da onu söyləməyə əsas verir ki, Ü. Hacıbəyli “Leyli və Məcnun” operasında milli vokal ifaçılığı sənətinin inkişaf perspektivliyinə də aydınlıq gətirərək, Avropa musiqisində vokal sənəti ənənələrinin milli məzmununu müəyyən edib.

Ü. Hacıbəyli “Leyli və Məcnun” operasında bir tək solo, ansambl və ya xor nömrələrinin janr xüsusiyyətlərini milli zəmində işləmir, milli simfonizm üçün xarakterik cəhətlərin ilkin rüşeymini hazırlayır. Operanın V pərdəsinin giriş mövzusu və “Arazbari” zərbi muğamına əsaslanan orkestr epizodunda bu istiqamətdən çıxış edir. Bəstəkar eyni zamanda gələcəkdə “Koroğlu” operasında nümayiş etdirəcəyi simfonik epizodlardakı ustalığının zəminini hazırlayır. Operanın milli simfonizmin yaranmasında əhəmiyyətini vurğulayan F. Əmirov yazır: “Ü. Hacıbəyov “Leyli və Məcnun” operasını yazmaqla musiqimizə bir çox yeni janr, o cümlədən simfonik janr gətirmişdir. Bu isə musiqi mədəniyyətimizdə, necə deyərlər inqilaba bərabər hadisə idi. Əlbəttə, “Leyli və Məcnun” operasındakı simfonik epizodlar hələ müstəqil simfonik musiqi sayıla bilməz. Lakin bu, Azərbaycan simfonizminin ilk rüşeymi idi” (Əmirov, 1978, s. 29). Göründüyü kimi milli musiqidə simfonik təfəkkürün formalaşma prosesi öz başlanğıcını məhz “Leyli və Məcnun” operasından götürür.

Ü. Hacıbəyli yaradıcılıq nailiyyətinin ilk izlərini daşıyan “Leyli və Məcnun” operasında bəstəkarlıq üslubunun konseptuallığını diqqətə çatdırır və yaradıcılıq yolunun istiqamətini müəyyənləşdirir. Bəstəkar əsərdə milli musiqi üçün zəruri olan bir sıra problemlərin həllinə nail olur. O, ilk başda qarşısına məqsəd olaraq qoyduğu milli məzmunlu musiqili təfsirlər yaratmaq və bununla milli musiqinin inkişafında yeni təmayüllərlə zəngin fərqli inkişaf istiqaməti formalaşdırmaq problemini həll edir. Daha sonra musiqili ifaçılığın bütün istiqamətlərinin yüksək səviyyədə inkişaf etdirilməsi sahəsində ilk ən əhəmiyyətli addımları

atır. Bəstəkar bir tək "Leyli və Məcnun" operasında milli musiqinin müasir və daha demokratik simasını müəyyən edir və gələcək inkişaf perspektivliyini ortaya qoyur.

Klassik Avropa musiqisinin bilinən janr, forma xüsusiyyətlərinin milli zəmində istifadəsi və inkişafı, milli musiqidə janr rəngarəngliyinin, bütün janrlarda əhəmiyyətli əsərlərin yaranması, bəstəkarlarımızın bir çox mənada sintezə əsaslanaraq dünya musiqi mədəniyyətinə yeni janr xüsusiyyətləri ilə seçilən əvəzolunmaz əsərlər töhfə etməyi, xalq musiqisinin qanunauyğunluqlarının öyrənilməsinin əhəmiyyətinin dərk edilməsi birmənalı olaraq Ü. Hacıbəylinin adı ilə bağlıdır. Bəstəkar bir tək "Leyli və Məcnun" operası ilə həm şəxsi yaradıcılıq yolunu müəyyənləşdirmiş, həm də fundamental sənət ocağı olan bəstəkarlıq məktəbinin formalaşmasına zəmin yaratmışdır. Onun "Leyli və Məcnun" operası milli musiqidə klassik ənənələri əks etdirən ilk əsər kimi bəstəkarlıq sənətinə marağın da əsasını hazırlayır. Bu sahədə aparılan yaradıcılıq təcrübələri olduqca zəngin irs formalaşdıran bəstəkarlar nəslinin yetişməsinə şərait yaradır.

**4. Nəticə**

Beləliklə, XX əsrin ilk onilliyində "Leyli və Məcnun" operası ilə milli musiqi tarixində yeni yaradıcılıq imkanları meydana gəlir. Ü. Hacıbəylinin xalq musiqisi bilikləri və Qori müəllimlər seminariyasında təhsil alarkən Avropa klassik musiqisinin qanunauyğunluqlarını mənimsəməsi nəticəsində Şərq və Qərb mədəniyyətinin özünəməxsus şəkildə sintez imkanları yaranır (Sadikhova, 2026). Bu haqda Z. Səfərova yazır: "Yer kürəsinin milyonlarla insanları Ü. Hacıbəyli musiqisinə qulaq asaraq, bütün kökləri ilə öz xalqının folkloru ilə bağlı olan və dünya musiqi mədəniyyətinin nailiyyətlərini mənimsəyən sənətkarın yaradıcılığına bələd olurlar. Bu yaradıcılıqda Şərqin və Qərbin musiqi ənənələrinin vəhdəti parlaq bədii obrazlarla əks olunmuş, yüksək humanizm idealları, xeyirxahlıq, xalqlar dostluğu tərənnüm edilmişdir" (Səfərova, 1985). Bəstəkar klassik musiqidə əsrlərlə formalaşan ənənələri milli musiqidə tətbiq edərək onun forma, janr, üslub xüsusiyyətlərində yeni təmayüllərin meydana gəlməsi prosesinin başlanğıcını gətirmişdir. Bununla əlaqədardır ki, Ü. Hacıbəylinin bütün yaradıcılığı ilk başda milli, daha sonra dünya musiqi sənətinin nadir irsidir.

**Declarations**

**Funding:** This research received no external funding.

**Conflicts of Interest:** The author declares no conflict of interest.

**Author Contributions:** Conceptualization, investigation, writing – original draft, and writing – review & editing: S.A.

**How to Cite:**

Ahmadova, S. (2026). Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası ilə milli musiqidə klassik Avropa musiqisinin forma və janr xüsusiyyətlərinin tətbiqi ənənələrinin formalaşması [The Formation of Traditions in Applying the Formal and Genre Features of Classical European Music to National Music through Uzeyir Hajibeyli's Opera Leyli and Majnun]. *Global Spectrum of Research and Humanities*, 3(3), 43–XX. https://doi.org/10.69760/gsrh.0260303004

## 5. Ədəbiyyat / References


Əmirov, F. (1978). *Musiqi səhifələri: Simfonik musiqimizə bir nəzər*. İşıq.

Azərbaycan musiqi tarixi. (2017). *II cild*. Elm.

Babayev, J. S., Sadikhova, S. N., Baghirova, M. A., Seidova, E. R., & Mammadova, A. A. (2025). A lexical-stylistic and cross-cultural analysis of vulgarisms and their usage spheres. *Universidad y Sociedad, 17*(6), e5525.

Hacıbəyli, Ü. (1965). *Seçilmiş əsərləri* (II cild). Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı.

Hacıbəyli, Ü. (1985). *Azərbaycan xalq musiqisinin əsasları*. Yazıçı.

İsmayılov, M. (1984). *Azərbaycan xalq musiqisinin janrları*. İşıq.

Kyazimova, L. (2023). Uzeyir Hajibayli's mugham opera "Leyli and Majnun" in the context of world musical culture. *Problems of Arts and Culture*. https://dergipark.anas.az/index.php/pac/article/view/3132

Laman, I. (2023, January 28). *Leyli and Majnun – First Oriental Opera turns 115*. AzerNews. https://www.azernews.az/culture/205539.html

Rzayeva, E., & Asgarova, T. (2026). Music and multilingualism: Investigating the role of songs in cross-cultural language acquisition. *EuroGlobal Journal of Linguistics and Language Education, 3*(3), 63–74.

Sadikhova, S. (2026). Naming culture: The linguistic power of culturonyms. *EuroGlobal Journal of Linguistics and Language Education, 3*(2), 66–72.

Səfərova, Z. (1985). *Üzeyir Hacıbəyov*. Yazıçı.

Türkmenoğlu, Ö., & Azizoğlu, Z. (2023). The first opera of the Turkish world "Leyli and Majnun". *Zeitschrift für die Welt der Türken*. https://www.zfwt.org/index.php/ZfWT/article/viewArticle/1392



**Received:** 30 June 2026
**Accepted:** 25 June 2026
**Published:** 27 July 2026


### Author Information


**Saida Ahmadova**
Lecturer, Department of Music Theory Subjects, Nakhchivan Music College under Nakhchivan State University, Azerbaijan
Email: vam-nsr@rambler.ru
ORCID: https://orcid.org/0009-0006-2024-0732
*Corresponding author*